# Ermənistanın təcavüzkar hərəkətləri dayandırılmalıdır!

**Prezident İlham Əliyev oktyabrın 4-də "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində sentabrın 27-də Ermənistan silahlı qüvvələrinin yenidən genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi intensiv atəşə tutması, düşmən ölkənin respublikamıza qarşı daim qeyri-konstruktiv mövqe nümayiş etdirməsi, hər zaman sərsəm bəyanatlar verməklə danışıqlar prosesinə maraqlı olmaması məsələləri geniş yer alıb.**

Dövlətimizin başçısı Ermənistan və Azərbaycan arasında mövcud böhran, eskalasiyanın başlanğıcı ilə bağlı vəziyyət barədə suala cavabında əvvəlcə indiki şəraiti diqqətə çatdırıb. Ölkə rəhbəri sentyabrın 27-də Ermənistan tərəfindən bizim hərbi mövqelərimizə və mülki şəxslərimizə hücum edildiyini, dinc vətəndaşların qətlə yetirildiyini, yaralandığını vurğulayıb. Bundan sonra Azərbaycanın cavab tədbiri görməyə məcbur olduğunu deyib: "Biz cavab tədbiri görməli idik və bizim cavabımız adekvat olmuşdur. Biz əks-hücuma başladıq və bu əks-hücum nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən Ermənistanın atəş mövqelərini susdura bildik. Biz ərazilərin bir qismini, bir neçə kəndi azad edə bildik və bu gün biz 27 il Ermənistanın işğalı altında olan Cəbrayıl şəhərini azad etdik. Bizim uğurlu hərbi əməliyyatımız davam edir. Biz torpaqlarımızı azad etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün tamamilə qətiyyətliyik".

Azərbaycan Prezidenti – "Açıq-aşkar görünür ki, Azərbaycan və Ermənistan arasında hadisələrin gedişi nəzarətdən çıxır, bu hərbi əməliyyatların genişlənməsinin hər hansı bir həddi varmı?", – sualına cavabında isə hadisələrin diqqət mərkəzində saxlanıldığını, vəziyyətin ordumuzun nəzarəti altında olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan hazırda hücum əməliyyatı həyata keçirir, məqsəd işğal altındakı əraziləri azad etməkdir.

Dövlətimizin başçısı buna qədər dəfələrlə Ermənistan xalqına işğalı dayandıraraq, bu cinayəti törədən öz hökumətinin məsuliyyətə cəlb olunması kimi çağırış etdiyini xatırladıb. Ermənistan isə buna razı olsa, 30 il ərzində qanunsuz şəkildə öz nəzarətində saxladığı işğal altındakı əraziləri boşaltmağa başlasa idi, təbii ki, müharibə də başa çatacaqdı: "Bizə müharibə lazım deyil. Biz 1992-ci ildən bəri danışıqlar prosesində iştirak edirdik. Demək olar ki, bu 30 il ərzində danışıqlar masasında sıfır irəliləyiş olmuşdur. Ermənistan ərazilərimizdən qoşunların tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının qətnamələrini icra etmək istəmirdi. Əksinə, onların hərbi-siyasi rəhbərliyi yeni torpaqları işğal etməyə cəhd edirdi. Onlar Azərbaycana qarşı hücuma keçməyə cəhd edirdilər və iyul ayında onlar faktiki olaraq yeni hərbi hücuma keçdilər. Beləliklə, biz özümüzü, insanlarımızı müdafiə etməli idik və dünyanın bütün ölkələri tərəfindən tanınan, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyümüzü bərpa etməli idik".

Müsahibədə diqqətçəkən bir məqama da toxunmaq istərdik. Belə ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana məxsus yaşayış məntəqələri intensiv şəkildə atəşə tutulmaqla işğalçı dövlət beynəlxalq hüquq normalarına, habelə müharibə qaydalarına əməl etmir. Bununla da düşmən ölkə özünün terrorçu və anti-insani mahiyyətini bütün dünyaya göstərir.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən uğurlu əks-hücum əməliyyatları bu gün də davam etməkdədir. Ordumuzun sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən əsgərləri geri çəkilərək döyüş mövqelərini qoyub qaçmaqdadırlar. Bununla yanaşı, düşmən belə təxribatlara əl atmaqla, mülki vətəndaşlarımızı atəşə tutmaqla qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini nümayiş etdirir. BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini



icra etməyən Ermənistan mülki insanları atəşə məruz qoymaqla yeni-yeni cinayətlər törədir. Lakin Ermənistan bilməlidir ki, Azərbaycan Ordusu erməni faşizminin layiqli cavabını verəcək və onu etdiyi hər cinayətə, vəhşiliyə görə cəzalandıracaq.

Prezident Əliyev müsahibəsində bu barədə danışaraq bildirib ki, Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Azərbaycan ərazilərimizin azad olunmasını istəyir. Bunun üçün iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdi. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə, Ermənistan iyul ayında Azərbaycana qarşı hərbi hücuma keçdi və ölkəmiz düşmən tərəfə adekvat cavab verdi. Erməni faşistləri ərazimizə terror aktları törətməyi planlaşdıran diversiya qrupu göndərdilər və bu qrupunun başçısı yaxalandı. Həmin diversiya qrupunun başçısının verdiyi ifadəsində Ermənistan tərəfinin sentyabr ayında Azərbaycana hücum əməliyyatına başlayacağı bildirilib.

İndiyədək Ermənistanın hücumu nəticəsində Azərbaycanın kənd və şəhərləri artilleriya bombardmanına məruz qalıb. Münaqişə bölgəsinə yaxın yaşayan sıravi azərbaycanlıların 500-dən çox evi tamamilə dağıdılıb və ya ziyan dəyib: "Buna görə Ermənistan bu təcavüzkar hərəkətləri dayandırmalıdır, onlar qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını üzərlərinə öhdəlik götürməlidirlər. Onlar işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı vaxt cədvəlini bizə təqdim etməlidirlər. Onların "Qarabağ Ermənistandır" deyən baş naziri indi deməlidir ki, "Qarabağ Ermənistan deyil" və bundan sonra əlbəttə ki, biz bu düşmənçiliyə son qoymağa və atəşkəs rejimini bərpa etməyə hazır olacağıq".

Müxbir müsahibə zamanı Ermənistan prezidentinin "Əl-Ərəbiyə" vasitəsilə işğalçı ölkənin münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarı olmasını vurğulayıb. Prezident İlham Əliyev də münaqişənin həllinin danışıqlar vasitəsilə reallaşmasının tərəfdarı olduğunu bildirib: "Lakin danışıqların məğzi olmalıdır. Ermənistanın "Qarabağ Ermənistandır" deməsi, – onların baş naziri bunu söyləyib, – münaqişənin həlli prinsiplərini faktiki olaraq məhv etdi. Çünki həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa olan ATƏT-in Minsk qrupu –onlar danışıqlar zamanı illər ərzində münaqişənin həlli üçün prinsipləri hazırlayıblar və regionumuzda dayanıqlı sülhə nail olmaq üçün birinci addım işğal olunmuş ərazilərin boşaldılmasıdır. İki il bundan əvvəl dövlət çevrilişi və Corc Soros tərəfindən maliyyələşdirilmiş "inqilab" nəticəsində hakimiyyətə gəlmiş Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyəndə o danışıqların məğzini məhv edir...".

Həqiqətən də, dövlətimizin başçısının qeyd etdiyi kimi, Ermənistanda hakimiyyətdə olan baş nazir öz destruktiv davranışı, hərbi toqquşmaya gətirib çıxarmış hərəkətləri barədə ciddi şəkildə düşünməlidir. Azərbaycan 28 ildir ki, danışıqlar prosesində iştirak edib. Azərbaycan Prezidenti Ermənistanın iki sabiq prezidenti ilə danışıqlarda iştirak edib və bu məsələdə təcrübə əldə olunub. Tərəflər həll yolunu tapmaq üçün nisbətən məqbul şəkildə işləyib, bununla bağlı müəyyən addımlar atılıb. Həmçinin vasitəçilərlə birlikdə münaqişənin həlli üçün əsas prinsiplər hazırlanıb.

Lakin bütün bunlara baxmayaraq, iki il əvvəl siyasi sahədə təcrübəsiz, bütün həyatı boyu hətta kiçik bir şirkətin rəhbərliyində işləməyən, geosiyasət, beynəlxalq münasibətlər haqqında heç bir anlayışı olmayan, küçədən keçən bir şəxs hakimiyyətə gəldi və öz ölkəsini dağıtmağa başladı. Bu gün Ermənistan böhran vəziyyətindədir.

Dövlətimizin başçısı daha sonra xatırladıb ki, Ermənistanın baş naziri tərəfindən bu ölkənin əsas siyasi partiya rəhbəri həbs edilib. Qarabağ münaqişəsi ilə bağlı müxtəlif dövrlərdə danışıqlar prosesinin iştirakçısı olan iki sabiq prezidentə qarşı cinayət araşdırmasına başlanılıb. Nikol Paşinyan respublikada tamamilə despotik bir rejim yaradıb...

Azərbaycan Prezidenti müsahibəsində işğalçı ölkənin baş nazirinin fəaliyyəti ilə bağlı deyib: "O, azərbaycanlılara qarşı təhqiramiz bəyanatlar verir, o, təhrikedici addımlar atır və vasitəçilərin özlərini, yumşaq desək, bu qəribə davranış çox çaşdırmışdır. O, danışıqlar prosesini məhv edir. Ona görə mən hesab edirəm ki, danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri "Qarabağ Ermənistan deyil" deməlidir, çünki "Qarabağ Ermənistandır" ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik".

Prezident Əliyev jurnalistin verdiyi suallara cavabında Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində Dağlıq Qarabağ əhalisinin 25 faizini təşkil edən azərbaycanlıların, eləcə də Dağlıq Qarabağ ətrafındakı 7 rayonda yaşayan 700 mindən çox soydaşımızın didərgin düşdüyünü, evlərinin dağıdıldığını, bütün tarixi abidələrimizin o cümlədən məscidlərimizin erməni barbarları tərəfindən yerlə-yeksan olunduğunu da diqqətə çatdırıb. Eyni zamanda, dövlətimizin başçısı erməni xalqına müraciətlə bildirib ki, Ermənistan hökumətini hərəkətlərinə görə məsuliyyətə cəlb edin, övladlarınızı Azərbaycana, işğal altındakı ərazilərə göndərməyin: "Bu gün qondarma "Dağlıq Qarabağ ordusu"nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Bu işğala son qoyun. Azərbaycan ərazisini tərk edin. Öz torpağınızda yaşayın və onda bizdə sülh olacaq. Biz yenidən Azərbaycan və erməni xalqlarının əvvəlki normal əlaqələrini bərpa etməyə çalışacağıq. Biz çalışarıq. Bu, asan olmayacaq, lakin biz çalışarıq qonşu olaq, yanaşı yaşayaq. Bu, necə deyərlər, mənim erməni xalqına sözümdür…".

Azərbaycan rəhbəri sonda – "Ermənistan hökuməti atəşkəs istəyirsə, qarşımızda üzr istəyin, bizə çıxmaqla bağlı vaxt cədvəli verin, sadəcə sözlər yox ki, biz bunu dayandıracağıq və danışıqlar aparacağıq. Bu, işləməyəcək. Onların hansı ərazini nə vaxt azad edəcəkləri ilə bağlı vaxt cədvəli - birinci gün, ikinci gün, üçüncü gün. Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil", – deyə vurğulayıb.

***Vaqif BAYRAMOV***
***"Xalq qəzeti"***